# Keçmişi "yaşadaq"

Unutqanlıqdan uzaq olduqca, insanın mənəviyyatı zənginləşir, vətənpərvərlik hissi daha da artır. Axı biz zəngin keçmişi, tarixi olan bir xalqa məxsusuq.

Əsrlər boyu tarixi şəxsiyyətləri yaşatmaq üçün onlar haqqında əsərlər yazılmış, kitab və jurnallar nəşr olunmuş, onların həyat və fəaliyyəti məktəb dərsliklərinə əlavə edilmişdir. Həmçinin bəzi tarixi şəxsiyyətlərin abidələri, barelyef və lövhələri hazırlanmışdır. Hər əsr, hər zaman isə öz gərdişini sürmüş, bu zaman köhnəlmiş abidə və tarixi əks etdirən bəzi real əşyalar lazımsızlaşdırılaraq məhv edilmişdir.



Tarixi yaşatmaq üçün nə qədər mənfiliklər olsa belə eksponatlar mənə elə gəlir ki, saxlanılmalı və onları öz yerini dəyişsə də vahid bir məkanda qorunub saxlanılmalıdır. Çünki bir neçə nəsil keçəndən sonra onlar haqqında heç bir xatirə saxlanılmazsa, gələcək nəsil real tarixdən uzaq ola bilər.

Vəndam qəsəbəsində Sovetlər dövrünün kolxoz təsərrüfatının fəaliyyəti dövründə kolxozun adı İvan Vladimiroviç Miçurinin adını daşıyırdı. Miçurin Voronej vilayətində yaşamış rus sovet bioloqu, seleksioneri, bir çox meyvə sortlarının müəllifi, biologiya elmləri doktoru, SSRİ Elmlər Akademiyasının fəxri üzvü olmuşdur. Sağlığında 3 dəfə seçilmiş əsərləri çap edilmişdir.

Abidə tarixi eksponat kimi saxlanılır. Ancaq yaxşı olar ki, bu tarixi eksponat bu illər ərzində saxlanılıbsa, bu gündən sonra da onu qismən qopan hissələrini bərpa etməklə, qoruyub saxlayaq!

**Bibixanım İSAYEVA.**

# Amma gözəllik!..

Qar yağır... Sanki göy üzündəki ağ buludlar torpaq üstdə məskən salır, qaranlıqdan, qara buludlardan qaçaraq.. Qar yağır, sakit, səssiz... Sükuta dalır səma. Nə şimşəklərə aman verir və də hansısa bir canlının hay-küylü səsinə, mənfi auraya... Göy üzündən endikcə sıx tərzdə, istər iri, istər xırda qar dənəciklərinin sürətlə endikcə günəş şəfəqlərinin dağlar arxasından boylanar, qarı torpağa hopturar.

Bəzən insan məskənləri olan zonalarda qar tapdandıqca daha tez torpağa qarışar. Hər dəfə tapdanan qarın səsini dinləmisinizmi?

Ayaq altda, "qalmağı" Tanrı heç kəsə nəsib etməsin. Bu yalnız və yalnız qara mənsub xoş niyyətlə... Axı qar torpağa yoğrulduqca torpaq



izi olmadıqda şaxta və sazaqla olan söhbətini, "nəğməsini" heç dinləyə bilibsinizmi?... Şaxta nə qədər ona "diş qıcasa" belə qar dənəcikləri göy üzündə rəqsvari hərəkətləriylə torpağa enməyə çalışır, dənə-dənə min olur, milyon olur, ağ dumana dönüb torpağa "yağan" olur, havaya sağlamlıq gətirir. İnsanların həyat tərzinə çox əhəmiyyətli bu qış kəpənəkləri. Məhv edici həşaratlara, yoluxucu xəstəliklərə qənim...

Göy üzündən Yer üzünə enib torpağa düşərkən toplanması belə simvolik. Qar yorğanı öz mövsümündə gələrsə insanların həyat tərzinə bolluq, bərəkət rəmzi.

Həm də mavi səmada məskunlaşan şəhid ruhlarının gizli yaşlarıdır sıxılıb-sıxılıb asta-asta uğrunda can verdikləri torpağa "görüşə" gəlirlər. Bəzən külək onların səmtini dəyişsə də, şaxta ilə birləşib uğultu versə də qorxmayaraq yer üzünə qonurlar qar halında, torpağa. Bəli uğrunda can verdikləri torpağa... Bu torpaqlara keşikçi olan əsgər oğullara yorğan olub onları şaxta-sazaqdan qorumaq üçün, torpaqlara tökülən qanları torpaqlara hopdurmaq üçün. Axı yaz gələndə günəş şəfəqləri torpağa sancıldıqca torpaq isinərək buxar kimi göylərə çəkilər bu qan qoxuları, müqəddəs vətən torpaqlarının torpaq ətirləri...

Qar dənəcikləri torpağa səyahətlərinə ara verən kimi günəş qarlı daxilən sevinər və günəşlə də qar ömrünü başa vurduqdan sonra ürəklə təbəssüm atar torpağa, torpağı qış yuxusundan oyadar. "Qar yorğanından" sonra torpaq öz gözəlliklərini ətrafa bəyan edər, şəhid qanlarının simvolu olan al-qırmızı güllər günəşə səmt olar.

Qar yağanda göy üzündəki ulduzlar da qeybə çəkilər... Elə ki qar dənəcikləri yorğunluğunu çıxarmaq istər, bax o zaman göy üzündə bərq vurar onlar.

Bu zaman torpaq üstdəki qarlar elə parıldar ki... Şaxta onları öz soyuğu ilə "qovurar", qar dənəcikləri bir birinə elə sarılar ki... Ayaq, əl toxunsa "səslərini" qışqırtıya çevirərlər.

Qışı sevər dağlar da! Çünki əzəmətini artırar onların; dərələrin isə dərinliyini göstərər göz baxdıqca. Çaylar, göllərdə sevər qarı, bolluq bəxş edər, həcm artırar onlar üçün.

Yerə enən hər qar dənəciyi bolluq rəmzi kimi insanları sevindirər. Təbiətin təbii həkimidir qar, çaxta... ancaq öz mövsümündə!

Qəhrəmanlığın pik fəsli! Əsgərlərimizin "şıltaqlığına" belə dözüm bəyan edəcək bir fəsil.

Qış ən ümdəsi, bahara astana... keçid!

Bəyazlığın simvolu... Lal sakitliyin gizli hayqırtısı... Amma gözəllik!!!

**Afət İSRAYILOVA,**
**Qəbələ şəhəri.**

# Maraqlı hobbi



Qəbələ şəhər sakini Məcnun Rəfiyev 10 ildən çoxdur ki, rayon turizm sektorunda fəaliyyət göstərir. Onun maraqlı hobbisi var; o, çay daşlarından məşhur və görkəmli şəxslərin portretlərini hazırlayır.

O, Azərbaycanın Milli Qəhrəmanı, həmyerlimiz Polad Həşimovun portretini hazırlamışdır. Ən maraqlısı odur ki, qəhrəmanın dəfni zamanı Məcnun Rəfiyev onun həyatından götürdüyü xırda daşlarla onun portretində "gözlərini" hazırlamışdır. General-mayorun çay daşlarından olan portreti 17 gün, 54 saata 48 min 600 ədəd çay daşı ilə hasilə yetmişdir.

**"Qəbələ"**

# Ürəklərdən gələn səda

Sənətin sonsuz axtarışlar yoluna çıxanlara əvvəllər mətbuat səhifələrində "Uğurlu yol" yazılardı. Bu yazıların çoxu sonralar həqiqətən də uğurlu yola çevrilərdi. Bəlkə də bu, sənət ağsaqqallarının səmimiyyətindən və proqnozlarının qətiyyətindən irəli gəlirdi. Sənətin əbədi yolu isə əsas meyar tək istedadı yenə də başı üstündə bayraq kimi saxlayır.

2023-cü ildə "Qəbələnin səsi" Ədəbi Yazarlar Birliyinin 5 yaşı tamam oldu.Bununla bağlı birliyin rəhbəri, gənc şair, təşkilatçı, vətənpərvər xanım Şəhla Xəlilqızı bu kitabın ideya müəllifi, jurnalist, AJB-nin üzvü Daşdəmir Əjdəroğludur.

Kitabda Qəbələ, Oğuz, Ağdaş, İsmayıllı və s. bölgələrdən olan bəzi yazarların şeir və publisistik yazıları toplanmışdır.

İnanırıq ki, kitab oxucular tərəfindən maraqla qarşılanacaq və oxunacaq.

**BİBİXANIM.**







# QƏBƏLƏ

## qəzetinə

**2024-cü ilin birinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 20 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

**Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226** (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

**Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.**


# İTMİŞDİR

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Qəbələ rayon Nohurqışlaq kənd sakini **Ağayev Qeysər Hümbət oğluna** verilmiş **reyestr nömrəsi 406013020397 olan, A № 008901 nömrəli torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Aydınqışlaq kənd sakini **Həmidzadə Səməndər Əbülfət oğluna** məxsus 2019-cu ildə yaradılmış **"Bərpaçı-2019" MMC-nin möhürü** itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər Yasamal rayon H. Zərdabi prospekti, 3166-cı məhəllədə yaşayan **Xəlilzadə Şəhriyar Fəxrəddin oğluna** məxsus, 2019-cu ildə **"Melissa Park" tərəfindən verilmiş müqavilə sənədi** itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon Mərkəzi Xəstəxanası PHŞ-in kollektivi iş yoldaşları **İsmət həkimin** vəfatından kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Qəbələ Rayon Mərkəzi Xəstəxanası PHŞ-in kollektivi **Sabir Bayramova** dayısı **Qəşəm Qasımovun** vəfatından kədərləndiklərini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.


Redaktor Azad Məmmədov.

TƏSİSÇİ: Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226. Redaktor: (024) 205-19-14. Ümumi: (024) 205-15-56. e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № AZ36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1000*